Aydın Yol
N 32(91) 17.09.2016



Atamın dostları

Azərbaycan əsilli görkəmli türk yazıçısı, siyasətçi və dövlət xadimi Səməd Ağaoğlu (1909-1982) çağdaş Türkiyədə memuar ədəbiyyatının aparıcı nümayəndələrindən biri kimi tanınır. Onun oxuculara təqdim olunan "Atamın dostları" kitabında atası, XX əsrin ilk onilliklərində Azərbaycanın və Türkiyənin fikir həyatında müstəsna xidmətləri olmuş Əhməd Ağaoğlu (1869-1939) ilə türkçülük hərəkatında, sənət və siyasət aləmində, yeni Türkiyənin qurulması uğrunda mübarizədə çiyin-çiyinə addımlayan bir sıra şəxsiyyətlərin portretləri yaradılıb. Müəllifin əsasən ad çəkmədən son dərəcə səciyyəvi cizgilərlə rəsm etdiyi bu portretlər həmin şəxslərin, eləcə də Əhməd Ağaoğlunun həyatının, mübarizə və ideallarının bir sıra xüsusiyyət və keyfiyyətlərini aşkara çıxarır.

Səməd AĞAOĞLU

(Əvvəli ötən saylarımızda)

Atam digər böyük bacım Təzərə məktubunda isə belə yazırdı:

"Məni Mərrix ulduzunda axtarırmışsan. Ah, qızım, mən də o parlaq ulduzu həbsxananın ən yüksək balkonundan hər gecə seyr edirəm və sizi gözlərim önünə gətirməyə çalışıram. Kim bilir, o ulduz neçə dəfə bizim baxışlarımızı və baxışlarımızla birlikdə qəlblərimizi, hisslərimizi, arzularımızı birləşdirib. Və kim bilir, zülm və ədavətin bizim kimi neçə min qurbanı o ulduzdan ümid və təsəlli umub".

Maltada əsirlərin başına açılan iztirablı bir oyun vardı: Vətəndən gələn məktubları ünvan sahiblərinə çox gec çatdırır, ya da yerli-dibli vermir, cırıb atırdılar. Bu səbəbdən də aylarla bir-birimizdən xəbər tuta bilmirdik, müxtəlif ehtimalların və bitib-tükənmək bilməyən əndişələrin içərisində batıb qalırdıq. Atam əsirlərə rəva görülən zülmlər arasında ən çox bu məktub məsələsindən mütəəssir olurdu:

"Yenə iki həftədir ki, sizdən heç bir məktub almadım. Aydın məsələdir, yazırsınız, amma mən ala bilmirəm. Yəqin, adicə məktublaşmanı da bizə çox görürlər. Zərər yox! Haqsızlıq üstündən edilən haqsızlıqlar haqqa daha tez çatmağa yardımçı olur. Əlbəttə, bir gün gələr, zalımlar belə zülmlərindən usanarlar".

Həftələrlə davam edən naməlumluğun, xəbərsizliyin gətirdiyi dərin melanxoliya birdən-birə əlinə yetişən kiçik bir məktub sayəsində öz yerini hüdudsuz sevincə verirdi. O zaman atamın qələmindən təvəkkülə, daha da səbirli olmağa çağıran belə sətirlər çıxırdı:

"Gözlərimin nuru, qızlarım və oğullarım!

Şiddətlə, ruhumun bütün atəşi ilə intizarını çəkdiyim məktublarınızı aldım. Çoxdan bəri tamaşasından məhrum olduğum o sevimli yazılarınızı təkrar-təkrar oxudum. Sevindim, məmnun oldum, təsəlli tapdım. Son bir ay yarımı böyük, çox böyük bir iztirab içərisində keçirdiyimdən sevincim, şadlığım da eyni dərəcədə böyük oldu. Zatən gözəl quşcuğazım məni məhzun görərək daim təsəlli verir, qızlarımın və oğullarımın həmişə atalarını düşündüklərini, məktub yazdıqlarını söyləyirdi. Lakin buna heç cür inana bilmirdim. Nəhayət, məktublarınızın gəlib çıxdığını eşidincə və sevincimi görüncə quşcuğaz elə qəhqəhələr çəkdi, əvvəlki şübhələrimə o qədər güldü ki, özüm də pərt oldum. İndi o quşcuğazın salamlarını sizə çatdırıram. Quşcuğaz sizə bunları deyir:

Səbirli və dözümlü olun. Unutmayın ki, ötüb keçən 1919-cu il atanız və məmləkətiniz üçün ən fəlakətli il oldu. Mənim kimi siz də dua edin ki, yeni gələn 1920-ci il daha xoş və məsud ilə çevrilsin. Amma tək dua ilə kifayətlənməyin. Eyni zamanda çoxluca çalışın. Çünki yalnız səy, zəhmət yolu ilə bu fəlakətlərin nəticələri aradan qaldırıla bilər. Baxın, mən burada atanızı əyləndirmək üçün nə qədər çalışıram. Siz də mənə oxşamağa səy edin. Xüsusilə də özünüzü həyatın müxtəlif gərdişləri qarşıdında səbir və dözüm göstərməyə alışdırın. İnsanlar xoş səsim, gözəl rəngim olduğuna görə məni satın aldılar, əsir etdilər. Vətənimdən, ailəmdən, azadlığımdan ayırdılar. Lakin bunlar məni ruhdan salmadı. Həyatımı yenə mümkün qədər düzənli etməyə, nizama salmağa, yaxşılaşdırmağa çalışdım və sonda buna müvəffəq oldum. Siz də elə edin. Atanızın yeganə xahişi hər zaman ananızı, qardaş-bacılarınızı, müəllimlərinizi, dostlarınızı məmnun etmək vəzifəsinin öhdəsindən gəlməyinizdən, əxlaqınızın hər zaman mətin və yerində olmasından ibarətdir.

Quşcuğazın sizə söylədikləri bunlardır. İndi nə cavab verəcəksiniz?"

Atamın məktubunda haqqında bəhs olunan quşcuğaz bir kanarya-tutuquşu idi. Onu aldığını əvvəlki məktublarından birində xəbər vermişdi:

"Sizə bir xəbər verim: Atanız bir kanarya alıb. Gültəkin qədər (o zaman hələ yalnız iki yaşında olan kiçik bacım - müəllifin qeydi) oynaq və şeytandır. Gündüzlər qəfəsini pəncərəmin önünə qoyuram, axşamlar otağa gətirirəm. Bir görəydiniz, necə gözəl və şuxdur. İki barmağımın arasında tutduğum bir tikə qəndi görər-görməz çırpınır, özünü ora-bura vurur, qanadlarını sallayır və şəkəri istəyir. Yeyəndən sonra isə elə gözəl oxumağa başlayır ki...

Bəzən quşdan soruşuram: Bəs indi uşaqlarım nə iş görür?

Gülür, əvvəl-əvvəl cavab vermək istəmir. Sonra "Əfəndim, sizin uşaqlarınız çox yaramazdırlar! - deyir. – Bilirsinizmi, Səmədin bağırtıları Şahzadəbaşına qədər gedib çatır?"

Məktublarında daxilindəki böyük inam və imanı bizlərə aşılamağa çalışır, üfüqləri qaranlıq, halı pərişan vətənin gələcəyindən həmişə arxayınlaqla, ümid və hərarətlə bəhs edirdi:

"Bura gəlib çıxan Avropa qəzetləri hər gün daha yaxşı və təsəlliverici xəbərlər gətirərək, bizə əsarətin iztirablarını unutdurur. Millətimizin hümməti ilə məmləkətimizin xilas olacağı ümidi qəlbimizə yeni sevinclər verir. Anadolunun əzm və səbatı artıq təsirini göstərməyə başladı. Mədəni adlandırılan millətlər zülm və istibdad önündə yuxulu vəziyyətdə qalarkən, işıq Şərqdən gəlir. Çürümüş, həya və abırdan məhrum millətlərin ölü qəlblərinə bu dəfə türklər yeni ruh bəxş edəcəklər".

Digər bir məktubunda isə deyilirdi:

"Mən bu məktubu sizə yazarkən Süleyman Nazif, Əhməd Emin, Vəlid, Cəlal bəylərlə Esat və Mahmud paşalar bağçada gəzirlər. Vasif bəy ilə (Qara Vasif bəy) Rauf bəy[1] isə yanımda dururlar. Belə olacağı kimin ağlına gələrdi? Lakin bütün bunlar müvəqqətidir, keçicidir. Əsl iş məmləkətin və millətin xilas olmasıdır. Siz buna inanın. Bunun üçün dualar edin. Türklər belə şeylərə tab gətirərlər. Millətimizin yaşaması isə iradeyi-ilahidir!"

Bəzən qüssəyə, kədərə qapıldığı məqamlar da olurdu. Əsarət həyatının yeknəsəq və sıxıcı şərtləri içərisində dərin istirabların girdabına düşür, gənc və duyğusal bir adam kimi ürəyindəkilərin hamısını dilə gətirirdi:

"Bu məktubu sizə yazdığım anda bayırda hava elə xoşdur ki, elə bil aprel ayıdır. (Məktub 1920-ci ilin noyabr ayında yazılıb - müəllifin qeydi) Qarşı tərəfimizdəki təpəciklər sarı cicəklərlə doludur. Hər tərəf yaşıllıqlara bürünüb. Bir neçə dəqiqə əvvəl mən balkonda gəzinir, qarşıdakı körfəzi dolduran gəmilərə baxır, sizi düşünərək öz-özümə deyirdim: "Ah, nə olaydı, bu gəmilərin biri məni alıb yanınıza aparaydı, iki ildən bəri çox zalımanə, haqsız yerə həsrət qaldığım o doğma simaları görəydim".

Mən bu xəyalda ikən Yəmən qəhrəmanı Fəxri Paşa balkonun baş tərəfindən "Əhməd bəy, nə düşünürsən? Olmaya ürəyin sıxılır?"- deyə soruşdu.

"Paşam, aramızda ürəyi sıxılmayan bir adam varmı? Sadəcə, bəzilərimizin ürəyi bəzi günlərdə daha çox sıxılır? Deyəsən, bu gün də mənim növbəmdir" - deyə cavab verdim.

Görünür, bu da əsarət həyatının xüsusiyyətlərindən biridir. Bəzən insanın üzərinə dərin bir hüzn, sonsuz bir kədər çökür. Səbəbini bilmədən qəribə hisslərin təsiri altına düşürsən. Gözlərini doğma yerlərə tərəf çevirərək, sevdiyin insanlarla mümkün qədər tez qovuşmaq eşqi ilə alışıb yanırsan. Bax həmin o zamanlarda insan həsrətini kağız üzərinə töküb ürəyini boşaldır, daxilən rahatlanır. Allah xeyirli eləsin, bu gün məktub günüdür. Mən də sizi qarşımda görərək indi özümü sizinlə söhbətləşən kimi hiss edirəm".

Tezliklə Malta sürgünlülərinin geri dönəcəkləri xəbərini almağa başladıq. Hətta atam özü də bir dəfə "Artıq azad olundum, gəlirəm"- deyə teleqraf göndərdi. Lakin aradan günlər keçdi, bir xəbər çıxmadı. Nəhayət, yeni məktubunu aldıq:

"Teleqramımın əvvəlcə sizi sevinclərlə müjdələyib hər gün gəmilərin qabağına çıxardığını biləndən sonra hər birinizin iztirabını, ağırlığını özüm də yaxşı başa düşdüyüm xəyal qırıqlığına uğratdığım üçün çox mütəəsir oldum və təəssüfləndim. Lakin nə edə bilərəm? Siz mənim yerimə olsaydınız belə qəti zəmanət alandan sonra dərhal xəbər çatdırmazdınızmı? Mən hələ də heyrət edirəm: necə olur ki, bizə belə əminliklə, qətiyyətlə söz verdikdən sonra hələ də burada saxlayırlar?"

Başqa bir məktubundan:

"Bu məktubu sizə yazarkən duyduğum hissləri sözlə necə anladım? Həm əsəbiləşirəm, həm də gülürəm. Əsəbiləşirəm, çünki azad edilməyimizlə bağlı göndərdiyim teleqramın üstündən bir ay keçdi. Amma hələ də buradayam. Gülürəm, çünki bu bir ay ərzində hər gün, hər saat buradan hərəkət etmək ehtimalı mövcuddur".

Bir axşam, təxminən saat ona yaxın səssiz küçəmizdə araba təkərlərinin taqqıltısı eşidildi. Araba düz baxça qapımızın qabağında dayandı. Xidmətçimiz Həsənin "Bəyəfəndi! Bəyəfəndi!"- deyə qışqırdığını eşitdik. Qaçaraq aşağı endik. Atamız gəlmişdi.

Səhərə qədər oturduq. Yanında, yaxud düz gözünün qabağında olduğumuz halda bəzən birimizi təlaşla axtarır, "Haradadır? Haradadır?" - deyə soraqlayırdı. Ertəsi gün gətirdiyi hədiyyələri payladı. Bunlar ölçüləri ayağımıza çox böyük ayaqqabılar, bədənimizə çox böyük olan paltarlar idi:

"Mən elə bilirdim siz lap böyümüsünüz".

Duyduğu böyük həsrət onu belə yanlış düşüncəyə vadar etmişdi.

Bir həftə sonra Anadoluya getdi.

---

[1] ***Əhməd Ağaoğlunun Malta sürgünündəki tale yoldaşları. Sonuncu iki şəxs – Mustafa Vasif Karakol (1880-1931) və Rauf Orbay (1881-1964) peşəkar hərbçilər idi. Malta sürgünündən sonra hər ikisi Milli Mücadilə hərəkatında fəal iştirak etmişdi.***

Davamı gələn sayımızda

Tərcümə edən:
Vilayət QULİYEV, professor